## Bu da Bir Həyatdır

Martın 1-i Xəzər Universitəsinin rektoru, professor, şair Hamlet Isaxanlının doğum günüdür

*Hörmətli Hamlet müəllim!*

Mənim şerlərimə ilk dəfə "uğurlu yol" arzulayan şair!

Bu gün martın 1-idir. Sizin doğum gününüzdür. Düz 56 il əvvəl uzaq Gürcüstanın Qardabani rayonunun Kosalı kəndində dünyaya göz açdınız. Adi uşaqlar kimi böyüdünüz. Orta məktəbi bitirdiniz. Amma arzularınız, düşüncələriniz başqalarınkından fərqləndi. Riyaziyyat müəllimi olan atanız Abdulla Sizə riyaziyyatı, nənəniz Zeynəb isə nağıl, bayatı deyə-deyə xalqımızın ruhunu sevdirdi. Arzuların qanadında gəldiniz Bakıya... "Riyaziyyat yoxsa ədəbiyyat" seçimi qarşısında qaldınız. Nəhayət qəlbən şair olan Hamlet Isayev ixtisasca riyaziyyatçı oldu. Bir riyaziyyatçı kimi bütün dünyada tanındınız. Riyaziyyatçı kimi tanınan Hamlet Isaxanlının "Təzadlar" adı ilk şer kitabı 2001-ci ildə işıq üzü gördü. Zümzümə edə-edə yazdığınız neçə şerlərə mahnılar bəstələndi... Ilk kitabınızı oxuyanlara məlum oldu ki, riyaziyyatçı alimin ədəbiyyata olan həvəsi ötəri deyilmiş. Incə duyğularınız şerə çevrilib "Şerə dönən duyğularım" adı altında Təbrizdə çap olundu. Öz ömrünüzün poeziyasına həyat verdiniz. Gürcü dilində çap olunan "Ömrün poeziyası" kitabınız Tbilisidə öz təzə ömrünə başladı bu yaxınlarda.

Mavi üz qabıqlı, dəniz rəngli, sevdiyiniz Xəzər rəngli "Bu da bir həyatdı" adlı şer kitabınız artıq bir neçə gündür ki, kitab şkafımda "Təzadlar"la yanyana qoyulub.

Riyaziyyatçı, şair ikən həm də qurucu oldunuz. llk ingilis dilli universitəni, Xəzər Universitəsini yaratdınız. Bu dünyaya sığmadınız - öz dünyanızı yaratmaq istədiniz. Beləcə yarandı "Dünya" məktəbi. Gördüyünüz işlərdən yorulanda, bezəndə, "Tək qalmaq istəyirəm" deyib duyğularınızı şerə çevirdiniz. Saçlarınızın ana sığalına, gözlərinizin qayğılı ana gözlərinə, zəhmətkeş əllərinizin qayğılı ana əllərinə ehtiyacı olanda "Susma, danış, ay ana" söyləyib yalvardınız ananıza.

***Baxma uşaq olmayan yaşıma***<br>
***Əlini çək başıma, ay ana! –***

dediniz.
Dünyanın neçə-neçə ölkələrində işlədiniz, neçə-neçə əcnəbi ölkələrə səfər etdiniz, amma

***Yaraşıqlı, möcüzəli bir diyar***<br>
***Amma orda nə eşqim, nə izim var***<br>
***Özyurdumda gül açmışdı arzular***<br>
***O güllərin qoxusundan burda var?! –***

deyib vətəndə yaşayıb yaratmağı öz insanlıq borcunuz bildiniz.

Sevgi haqda öz sözünüzü söylədiniz:

***Belədir təbiət-***
***Sevgi ondan betər -***
***Ya ömrə bəzəkdir,***
***ya ömrü puç eylər***
**Haqsızlıqlarla üzləşəndə**
***"Həssas ürək qəmə batıb***
***çürüməsə***
***Yaşamağa nə varki"*** -qənaətinə gəldiniz.

Həyatın amansızlıqları, sərtlikləri ilə qarşılaşanda

***"Ölümə nə varki, gülüm***
***Yaşamaqdır bu dünyada ən ağır ış!"***- dediniz.

Hamlet müəllim! Bu gün martin 1-idir. Mart həm qış ayıdır, həm yaz. Mart həm qış kimi sərtdir, həm də yaz kimi mülayim. Təzadlı aydır mart. Siz isə bu təzadlı ayın lap başlanğıcında dünyaya göz açmısmız. Bəlkə doğulduğunuz ayın "xasiyyətləri" sizə də keçib?

Adnıızın içindən "olum-ölüm" sualı boylanır. Hərdən siz də qış kimi sərt, hərdən də yaz kimi mülayim olursunuz. Ciddi olduğunuz qədər də zarafatçılsınız. Gah müdriklik sevən şahmat taxtası arxasında əyləşib xəyala dalırsınız, gah da çılğınlıq tələb edən futbol oyununda bir top arxasınca qaçırsınız. Ilk şer kitabınızın "Təzadlar" adlanması təsadüfıdir. Təsadüf özu də zərarətdən doğmurmu?

Doğum gününüz münasibətilə sizi təbrik edirəm, Hamlet müəllim! Heç bilmirəm sizə nə arzulayım? Şöhrət arzulamıram mən sizə, çünki siz elə işlər görürsünüz ki, şöhrət özü gəlib sizi tapır. Zənginlik arzulamıram sizə. "Zənginlik zəka istər" deyiblər. Zəngin zəka sahabisiniz. Sizə ən şirin nemət olan cansağlığı arzulayıram! Gözləriniz daim nurlu olsun! Qəlbiniz duyğulu şerlərlə dolsun! Qəm görünməsin gözlərinizdə !*"Eh... Arzudan dadlı dünyada nə var?"* - deyən şair Hamlet Isaxanlıya şirin arzular və o arzuları həyata keçirmək üçün həyat eşqi arzulayıram.

*Hörmətlə, sizin şerlərinizi sevən*
***Sevil GültəN***